№ 15 (7197) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ

# Azərbaycan-Ukrayna əməkdaşlığının təməlində dostluq əlaqələri dayanır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 14-də Ukraynaya işgüzar səfəri, Azərbaycan və Ukrayna prezidentlərinin görüşündən sonra iki ölkə arasında bir sıra mühüm sənədlərin imzalanması dost ölkələrin münasibətlərində, xüsusən iqtisadi-ticari sahədə əməkdaşlıqda yeni səhifə açıb. Ölkələrimiz arasında siyasi münasibətlər hər zaman yüksək səviyyədə olub. Qarşılıqlı səfərlər, aparılan səmərəli danışıqlar bu münasibətlərin dərinləşməsinə və digər sahələrdə də müsbət dinamikanın əldə olunmasına şərait yaradıb.**

Azərbaycan Prezidenti İlham Əliyevin 2008-ci ildə Ukraynaya səfəri çərçivəsində imzalanan "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq və strateji tərəfdaşlıq haqqında bəyannamə" ölkələrimiz arasında münasibətlərin yeni inkişaf mərhələsinə qədəm qoymasını şərtləndirdi. Bu sənəd həm də gələcək əməkdaşlığın istiqamətlərinin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynadı.

Onu da qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası ilə Ukrayna arasında diplomatik əlaqələr 31 yanvar 1992-ci ildə yaradılmış, 1996-cı ildə Ukraynanın Azərbaycanda, 1997-ci ildə isə Azərbaycanın Ukraynada səfirliyi açılmışdır. Dövlətlərimizin münasibətlərinin əsasını 16 mart 2000-ci il tarixli Azərbaycan Respublikası və Ukrayna arasında dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında Müqavilə və 22 may 2008-ci il tarixli Azərbaycan Respublikası və Ukrayna arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamə təşkil edir. Azərbaycanla Ukrayna arasında siyasi, iqtisadi, elmi, təhsil, mədəni və digər sahələrdə əlaqələr yüksələn xətlə inkişaf edir, iki dövlət strateji tərəfdaşdır. Parlamentlərarası əlaqələr və qanunvericilik sahəsində əməkdaşlıq inkişaf edir. Ötən illər ərzində Azərbaycan və Ukraynanın müxtəlif səviyyəli dövlət rəsmiləri arasında qarşılıqlı səfərlər oldu. Bu səfərlərin nəticəsi olaraq Azərbaycan-Ukrayna münasibətləri enerji sahəsindən tutmuş müdafiə sahəsinə qədər geniş əməkdaşlıq spektrlərini əhatə etdi. Ölkələrimiz arasında münasibətlərin intensiv dinamikası cənab İlham Əliyev prezident seçildikdən sonra da davam etdirilir.

Siyasi əlaqələrin 30-cu ildönümündə Ukrayna ilə Azərbaycan arasında 6 sənədin imzalanması bu münasibətlərin inkişafına daha da təkan verəcək. Bununla yanaşı, dost ölkədə dəmyə əsaslı və yüksək məhsuldarlığa malik, xarici icarəyə açıq geniş torpaqlar var. Strateji əhəmiyyətli kənd təsərrüfatı məhsulları, xüsusilə taxıl əkini üçün icarəyə torpaqlar götürmək və hasil olan məhsulu ölkəmizə gətirmək olar. Əlbəttə ki, bu, son günlər dünya bazarlarında ərzaq qiymətlərində müşahidə edilən artımın ölkə iqtisadiyyatına təsirinin azalmasında və ərzaq təhlükəsizliyimizin təminində önəmli rol oynaya bilər.

(davamı 2-ci səhifədə)

# Azərbaycan-Ukrayna əməkdaşlığının təməlində dostluq əlaqələri dayanır

(əvvəli 1-ci səhifədə)

Səfərin yekunları ilə bağlı verdiyi bəyanatda Azərbaycan Prezidenti İlham Əliyev deyib: "Ərzaq təhlükəsizliyi ilə bağlı bu gün əldə edilmiş razılaşmalar Azərbaycana imkan verəcək ki, öz ərzaq təhlükəsizliyini daha geniş həcmdə təmin etsin. Eyni zamanda, birgə müəssisələrin yaradılması, kənd təsərrüfatı məhsullarının emalı və ixracı ilə bağlı birgə fəaliyyət üçün bu gün zəmin yaradılmışdır. Bu, bir yenilikdir, bizim əlaqələrimizdə bu sahə ilə bağlı hesab edirəm ki, atılan ən mühüm addımlardan biridir. Bütün başqa sahələrdə də biz əməkdaşlığa açığıq". Ölkə başçısı onu da qeyd edib ki, Azərbaycan Dövlət Neft Şirkəti - SOCAR Ukraynada öz fəaliyyətini genişləndirmək əzmindədir və Ukrayna tərəfi də bunu dəstəkləyir. Hazırda SOCAR-ın Ukraynada geniş yanacaqdoldurma stansiyalarından ibarət şəbəkəsi var. Neft və neft məhsullarının ixracı və emalı ilə bağlı yeni addımların atılması bizim əməkdaşlığımızı daha da dərinləşdirəcək. Ukrayna dövlətinin başçısı Volodimir Zelenski bildirib ki, münasibətlərimizin gücləndirilməsinə xüsusi diqqət yetirəcəyik. Kənd təsərrüfatı, nəqliyyat, energetika, ticarət sahələrinə aid olan ikitərəfli 6 sənəd imzalandı. Bunlar çox vacibdir. Qarşımızda planlarımız çoxdur və bu gün biz cənab Azərbaycan Prezidenti ilə geniş müzakirə apardıq. Bizim məhz qida təhlükəsizliyi sahəsində razılaşmamız, o cümlədən ticarət sahəsində aparılan müzakirələr geniş imkanlar yaradır. COVID-19-a baxmayaraq, əslində, 7 il ərzində ilk dəfə olaraq bizim ikitərəfli ticarətimizin dövriyyəsi təxminən artıq 1 milyard dollara çatıb. Bu, bizim qarşımızda daha mühüm məqsədlər qoymağa imkan yaradır. 2024-cü ilə qədər bizim ticarət dövriyyəmizin bundan sonra da artırılması ilə bağlı dəqiq planımız var.

İqtisadi ticarət əlaqələrinin inkişafı məqsədilə 2018-ci ildə Kiyevdə Azərbaycan Ticarət Evi, 2019-cu ildə isə Bakıda Ukrayna Ticarət Evi açılıb. Bu səmərəli mexanizm biznes dairələri arasında əlaqələrin genişləndirilməsi üçün əlavə imkanlar yaradır. İki ölkə arasında investisiya əməkdaşlığında sənaye, tikinti, ticarət, kənd təsərrüfatı, nəqliyyat, xidmət və digər sahələrdə Ukrayna kapitallı şirkətlər ölkəmizdə uğurla fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycan şirkətlərinin Ukraynada uğurlu fəaliyyəti də məmnunluq doğurur, şirkətlərimizin iqtisadi fəallığına dövlətimiz tərəfindən hər zaman hərtərəfli dəstək verilir. Onu da qeyd edək ki, hər iki ölkənin iş adamlarının iştirakı ilə təşkil edilən biznes forumlar və işgüzar görüşlər yeni əməkdaşlıq imkanlarının və iş adamları arasında qarşılıqlı etimadın yaranmasına, ticarət dövriyyəsinin artmasına töhfə verir.

Beynəlxalq təşkilatlar çərçivəsində münasibətlərə və qarşılıqlı siyasi əlaqələrə gəldikdə isə, ekspertlərin də vurğuladıqları kimi, onlar ən yüksək səviyyədədir. İstər BMT-də, istərsə də digər beynəlxalq təşkilatlar çərçivəsində Ukrayna hər zaman Azərbaycanı, Azərbaycan isə Ukraynanı dəstəkləyir. Bir sözlə, vurğulamaq yerinə düşər ki, ikitərəfli münasibətlərin inkişafı istər Azərbaycan Respublikasının, istərsə də Ukraynanın xarici siyasətində həmişə xüsusi yer tutub. Bunu ilk növbədə qarşılıqlı faydalı iqtisadi, siyasi, elmi, texnoloji və əlbəttə ki, mədəni əməkdaşlığın böyük imkanları şərtləndirir. İki ölkənin nadir geosiyasi mövqeyi də bu mənada əhəmiyyətli amildir. Daha dəqiq desək, Ukrayna Avropa və Asiya arasında əsas yolların və əlaqələrin kəsişməsində yerləşir. Şərqlə Qərbin qovuşuğunda yerləşən Azərbaycan isə müxtəlif sivilizasiyalar və mədəniyyətlər arasında mühüm körpü rolunu oynayır. BMT, AŞ, QDİƏT, GUAM, MDB və digər beynəlxalq və regional təşkilatlar çərçivəsində Azərbaycanla Ukrayna məsləhətləşmələr aparır və ənənəvi olaraq bir-birinə qarşılıqlı dəstək verir. Eyni zamanda, iki ölkə terrorizm, mütəşəkkil cinayətkarlıq, narkotiklərin yayılması və digər təhlükəli cinayətlərlə mübarizə sahəsində fəal əməkdaşlıq edir.

Ümumiyyətlə, Azərbaycanla Ukrayna arasında bütün dövrlərdə formalaşmış normal əməkdaşlıq mühiti son illərdə dinamizm və inteqrasiya baxımından geniş xarakter alıb. Hər iki ölkə siyasi-iqtisadi, humanitar sahələrdə səmimi dostluq əlaqələrinin əsaslı təməllərini qoyub. Bu illər ərzində əməkdaşlığın hüdudlarının genişlənməsi dövlətlərarası münasibətlərin formatını MDB çərçivəsindən kənara çıxararaq, ikitərəfli əlaqələrin dərinləşməsinə möhkəm baza yaradıb. Bunun nəticəsidir ki, ölkələr arasında ticarət dövriyyəsi son illər ərzində əhəmiyyətli dərəcədə artmaqdadır. Belə ki, Azərbaycan Ukraynadan, əsasən, metallurgiya, maşınqayırma, kənd təsərrüfatı texnikası idxal edir, bu ölkəyə neft-kimya və aqrar sənaye məhsulları ixrac edir. Eyni zamanda, ölkənin enerjiyə olan tələbatının ödənməsində Azərbaycandan idxal etdiyi neft mühüm rol oynayır.

Dost ölkələr bir-birinin mədəniyyətinə, dilinə çox böyük hörmət və qayğı ilə yanaşırlar. Məsələn, Azərbaycanda Ukrayna dili öyrənilir. Bu da, dost ölkənin mədəniyyət və incəsənəti ilə daha yaxından tanış olmağa imkan yaradır. Ukraynanın dahi oğlu Taras Şevçenkonun və Lesya Ukrainkanın ölkəmizdə abidələrinin ucaldılması da Azərbaycanda Ukraynaya xoş münasibət olmasından xəbər verir. Ukraynada da xalqımıza böyük hüsn-rəğbət göstərilir. Ümummilli liderimiz Heydər Əliyevin bu ölkədə abidəsinin ucaldılması və Kiyev şəhər sovetinin qərarı ilə həmin abidənin yerləşdiyi parka Heydər Əliyevin adının verilməsi iki ölkə arasında dostluq münasibətlərinin yüksələn xətt üzrə inkişaf etdiyindən xəbər verir.

Ötən illər ərzində yüksək səviyyəli görüşlər zamanı müzakirə olunan məsələləri və mövcud potensialı nəzərə alsaq, bu səfər çərçivəsində də qarşılıqlı sərmayə qoyuluşu, turizm, informasiya texnologiyaları və bir sıra digər məsələlərə dair müzakirələr belə deməyə əsas verir ki, dövlətimizin başçısının Ukraynaya bu işgüzar səfəri iqtisadi sahədə əməkdaşlığın daha da genişləndirilməsi üçün yeni imkanlar və perspektivlər vəd edir. Cənab Prezident əminliklə vurğuladı ki: "Bizim əməkdaşlığımızın təməlində dostluq əlaqələri dayanır və ümid edirəm ki, bu gün ilin əvvəlində həyata keçirilən bu səfər həm bu ili ikitərəfli müstəvidə yaxşı nəticələrlə başa vurmağa xidmət göstərəcək, həm də gələcək illər üçün də gözəl zəmin olacaq".

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika.- 23 yanvar.- 2022- ci il.- S.2.